**Hüseynova S.U.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2026.83.78-91**
**UOT: 34:342**

# Azərbaycan Respublikasında vətəndaşlıq münasibətlərinin hüquqi tənzimlənməsi: elektron hökumət və rəqəmsal xidmətlər kontekstində

**Xülasə:** Azərbaycan Respublikasında vətəndaşlıq münasibətlərinin hüquqi tənzimlənməsi müasir dövrdə həm milli qanunvericiliyin təkmilləşdirilməsi, həm də rəqəmsal idarəçilik modellərinin tətbiqi ilə dinamik bir inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu prosesin nəzəri və praktiki əsasını vətəndaşlıq hüququnun konstitusion mahiyyəti ilə yanaşı, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq sənədlər – xüsusilə, "Vətəndaşlıq haqqında" (1997) Avropa Konvensiyasında, habelə "Apatridlərin statusu haqqında" (1954) və "Vətəndaşsızlığın ixtisar edilməsi haqqında" (1961) konvensiyaları, eləcə də digər beynəlxalq sənədlər təşkil edir.

Müasir dövlət idarəçiliyinin mərkəzində dayanan rəqəmsal transformasiya və "Elektron hökumət" modelinin inkişafı, müvafiq sahədə imzalanmış strateji Fərman və Dövlət Proqramlarının icrası nəticəsində vətəndaşlıq məsələlərinin həllində köklü dəyişikliklərə səbəb olmuşdur. Həmin hüquqi aktlarla müəyyən edilmiş "Hökumət buludu" (G-cloud) infrastrukturu, "Mygov" platforması və "SİMA" biometrik rəqəmsal imza texnologiyaları vasitəsilə vətəndaşlığın əldə edilməsi, bərpası və xitamı kimi mürəkkəb prosedurlar elektronlaşdırılmışdır. Bu yeniliklər bürokratik maneələrin azaldılmasına, xidmətlərin əlçatanlığının artırılmasına və şəffaflığın təmin edilməsinə xidmət edir. Xüsusilə biometrik identifikasiya və süni intellekt əsaslı sistemlərin tətbiqi həm fərdin hüquqlarının daha effektiv qorunmasına, həm də məlumat təhlükəsizliyinin strateji səviyyədə təmin olunmasına imkan yaradır.

Azərbaycanın bu sahədəki milli təcrübəsinin beynəlxalq konvensiyaların tələbləri ilə innovativ texnologiyaların sintezinə əsaslandığı və ölkəmizin BMT-nin Elektron Hökumətin İnkişafı İndeksindəki mövqeyinin bu uğurlu rəqəmsal strategiyanın nəticəsi olduğu qeyd edilir. Vətəndaşlıq vəziyyəti aktlarının rəqəmsallaşdırılması və mərkəzləşdirilmiş məlumat sistemlərinin inteqrasiyası dövlət və vətəndaş arasındakı münasibətləri müasir hüquqi dövlət quruculuğu prinsipləri əsasında yenidən formalaşdırır. Ümumilikdə, Azərbaycanın bu sahədəki milli təcrübəsi beynəlxalq konvensiyaların tələbləri ilə innovativ texnologiyaların sintezinə əsaslanır və gələcək inkişaf üçün möhkəm hüquqi-texnoloji baza yaradır.

**Açar sözlər:** vətəndaşlıq, elektron hökumət, rəqəmsal transformasiya, hüquqi tənzimləmə, vətəndaşlıq hüququ, beynəlxalq hüquq, milli qanunvericilik, konstitusion təminat, apatridlik, miqrasiya xidməti

Müasir dövrdə dövlət idarəçiliyinin rəqəmsallaşması və elektron hökumət infrastrukturunun genişlənməsi vətəndaşlıq münasibətlərinin tənzimlənməsində yeni yanaşmaları zəruri edir.

♦ **Hüseynova Sevinc Usub qızı** - AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun "Rəqəmsal Şərqşünaslıq və Süni intellekt" şöbəsinin aparıcı elmi işçisi, hüquq üzrə fəlsəfə doktoru, dosent. E-mail: sevincshuseyn70@gmail.com

Azərbaycan Respublikası Konstitusiyasının 52-ci maddəsində Azərbaycan Respublikası vətəndaşlığının anlayışı müəyyən edilmişdir. Bu maddəyə əsasən, Azərbaycan dövlətinə mənsub olan, onunla siyasi və hüquqi bağlılığı, habelə qarşılıqlı hüquq və vəzifələri olan şəxs Azərbaycan Respublikasının vətəndaşıdır. Qanunvericilik müəyyən edir ki, Azərbaycan Respublikasının ərazisində və ya Azərbaycan Respublikasının vətəndaşlarından doğulmuş, habelə valideynlərindən biri Azərbaycan Respublikasının vətəndaşı olan şəxs Azərbaycan Respublikasının vətəndaşı hesab edilir.

Azərbaycan Respublikası Konstitusiyasının 53-cü maddəsinin tələblərinə görə, Azərbaycan Respublikasının vətəndaşı qanunla müəyyən edilmiş itirilmə halları istisna olmaqla, vətəndaşlıqdan məhrum edilə bilməz. Həmçinin vətəndaş heç bir halda Azərbaycan Respublikasından qovula və ya xarici dövlətə verilə bilməz [1].

Vətəndaşlığın bu fundamental hüquqi toxunulmazlığı müasir dövrdə təkcə fiziki deyil, həm də rəqəmsal mühitdə öz təsdiqini tapmaqdadır.

Xüsusi qeyd edilməlidir ki, müasir idarəetmədə elektron hökumət (e-hökumət) sistemlərinin tətbiqi mühüm əhəmiyyət kəsb edir. Elektron hökumət yüksək informasiya texnologiyalarının tətbiqi vasitəsilə dövlət qurumları tərəfindən Azərbaycan Respublikasının ərazisində yaşayan bütün vətəndaşlara, hüquqi və fiziki şəxslərə, habelə xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə informasiya və elektron xidmətlərin göstərilməsini təmin edir. Azərbaycan Respublikasında Elektron Hökumətin formalaşdırılması prosesi ABŞ, Avropa İttifaqı, Cənubi Koreya, Estoniya və Sinqapur kimi ölkələrin təcrübəsi, həmçinin BMT və Avropa Şurasının standartları əsasında həyata keçirilir. Bu sistem müasir İnformasiya Kommunikasiya Texnologiyaları (İKT) vasitəsilə vətəndaşlara, hüquqi və fiziki şəxslərə rəqəmsal xidmətlərin göstərilməsini təmin edir. Prosesin hüquqi bazası "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)" və 23 may 2011-ci il tarixli "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Fərmanla yaradılmışdır. Hazırda bu model "Hökumət buludu" (G-cloud) texnologiyası üzərində inkişaf etdirilir. Azərbaycan Respublikası Prezidentinin 14 mart 2018-ci il tarixli Fərmanına əsasən, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində yaradılmış "Elektron Hökumətin İnkişafı Mərkəzi" rəqəmsal hökumətə keçid prosesinin əlaqələndiricisi və infrastruktur qurucusu kimi fəaliyyət göstərir.

Rəqəmsallaşma sahəsində son illərdə ölkədə bir sıra normativ hüquqi aktlar qəbul edilmişdir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 avqust tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiyası" təsdiq edilmişdir. Qeyd edilən Strategiyada informasiya təhlükəsizliyinin və kibertəhlükəsizliyin təmin olunması üçün yeni texnoloji həllərin tətbiqinin və daim inkişaf etdirilməsinin zəruri olduğu göstərilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 16 yanvar tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası" rəqəmsal inkişafın əlaqələndirilmiş formada həyata keçirilməsini, rəqəmsal infrastrukturunun gücləndirilməsini, vahid rəqəmsal arxitekturanın qurulmasını və texnoloji adaptasiyanın sürətləndirilməsini əsas hədəflər kimi müəyyən etmişdir.

Azərbaycan Respublikasında süni intellektin inkişafının sürətləndirilməsi məqsədilə Cənubi Qafqazda ilk olaraq Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 mart tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası" təsdiq edilmişdir.

"Dövlət orqanları (qurumları) arasında sənəd mübadiləsinin elektronlaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 1 avqust tarixli Fərmanına əsasən, "Rəqəmsal Sənəd Dövriyyəsi" altsisteminin yaradılması nəzərdə tutlmuşdur. Eyni zamanda, Azərbaycan Respublikasının 28 iyun 2024-cü il tarixli Qanunu ilə vətəndaşlıq vəziyyəti aktlarının və şəxsiyyət vəsiqəsinin rəqəmsallaşdırılması təmin edilmişdir. Həmçinin, Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 12 avqust tarixli Fərmanı ilə təsdiq edilmiş "Elektron Hökumət İnformasiya Sistemi haqqında Əsasnamə"də elektron hökumət və elektron xidmətlər sahəsində bir sıra yeniliklər təsbit edilmişdir.

27 fevral 2026-cı ildə Azərbaycan Respublikasında rəqəmsallaşma, elektron hökumət, süni intellekt və innovasiya sahələrində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurası yaradılmışdır. Eyni tarixli Sərəncamla "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı təsdiq edilmişdir. Bu Fəaliyyət Planı rəqəmsal texnologiyaların müasir iqtisadi artımın əsas hərəkətverici qüvvəsi olduğu bir dövrdə rəqəmsal inkişafın strateji əhəmiyyəti nəzərə alınaraq hazırlanmışdır. "Hökumət buludu"nun istifadəyə verilməsi, "SİMA" biometrik rəqəmsal imzanın uğurlu tətbiqi nəticəsində Azərbaycan Respublikası 2024-cü ildə BMT-nin Elektron Hökumətin İnkişafı İndeksində 74-cü yerə yüksəlmişdir.

Fəaliyyət Planı əsasında 2026-2028-ci illər ərzində dövlət orqanları tərəfindən "yalnız bir dəfə" prinsipinin reallaşdırılması, bütün dövlət xidmətlərinin "Mygov" və "Mygov Biznes" platformaları vasitəsilə göstərilməsi, "rəqəmsal səyyah" vizasının tətbiqi və miqrasiya prosedurlarının rəqəmsal qaydada sadələşdirilməsi nəzərdə tutulur [3].

Azərbaycan Respublikasında vətəndaşlıq məsələlərinin hüquqi tənzimlənməsi Konstitusiya, xüsusi qanunvericilik aktları və beynəlxalq hüquq normaları əsasında həyata keçirilir.Vətəndaşlıq münasibətləri vətəndaşlıq hüququnun tanınması; bərabərlik; vətəndaşlığın özbaşına ləğvinə yol verilməməsi; vətəndaşsızlıq hallarının qarşısının alınması və insan hüquqlarının prioritetliyi prinsiplərinə əsaslanır.

Vətəndaşlıq hüququn ən əhəmiyyətli institutlarından biri olaraq, cəmiyyətdə və dövlətdə fərdin hüquqi vəziyyətinin əsasını təşkil edir. Vətəndaşlıq məsələlərinin tənzimlənməsində beynəlxalq hüquq normaları müəyyən minimal insan hüquqları standartlarını təsbit etməklə, eyni zamanda, vətəndaş hüquqlarının məzmun baxımından zənginləşdirilməsini təmin edir, dövlətlərin müvafiq hüquq və öhdəliklərini dəqiqləşdirir.

Azərbaycan Respublikasında vətəndaşlıq məsələlərini tənzimləyən xüsusi qanunvericilik aktı "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" 30 sentyabr 1998-ci il tarixli Azərbaycan Respublikası Qanunudur. Bu qanuna əsasən, Azərbaycan Respublikasının vətəndaşlığı onun əldə edilməsi əsaslarından asılı olmayaraq hamı üçün bərabərdir. Qanunun 6-cı maddəsinə əsasən, Azərbaycan Respublikasının vətəndaşlığını təsdiq edən sənədlər aşağıdakılardır: Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi; 15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı; Azərbaycan Respublikası vətəndaşının pasportu. Nəticədə Elektron hökumət portalı vasitəsilə vətəndaşlar öz hüquqlarını rəqəmsal qaydada reallaşdıra bilirlər [8].

Eyni zamanda Vətəndaşların müraciətləri haqqında AzərbaycanRespublikasinin Qanununa uyğun olaraq, rəqəmsal platformalar (elektron müraciət, telefon xidməti) vasitəsilə vətəndaşların hüquqlarının qorunması operativləşdirilmişdir. Qanunun 3-cü maddəsinə əsasən ektron müraciət –

müraciətə baxan subyektin və ya onun vəzifəli şəxsinin elektron ünvanına göndərilən və ya rəsmi internet saytı vasitəsilə daxil edilən müraciətdir. Bu qanun Azərbaycan Respublikası vətəndaşlarının müraciət etmək hüququnun həyata keçirilməsi ilə bağlı münasibətləri tənzimləyir, vəzifəli şəxslərin müraciətlərə baxması qaydasını müəyyən edir. Qanuna əsasən, İrqinə, milliyyətinə, dininə, dilinə, cinsinə, mənşəyinə, əmlak vəziyyətinə, qulluq mövqeyinə, əqidəsinə, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətinə görə şəxsin müraciət etmək hüququnu məhdudlaşdırmaq qadağandır. Qanunun 5-ci maddəsinə görə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa qayda nəzərdə tutulmayıbsa, bu Qanunun müddəaları əcnəbilərin, vətəndaşlığı olmayan şəxslərin və xarici hüquqi şəxslərin müraciətlərinə şamil edilir [16].

Xüsusı olaraq qeyd edik kı, beynəlxalq hüquq hər bir insanın vətəndaşlıq hüququnu təsbit edir. Bu, fərdin alınmaz hüququdur. 10 dekabr 1948-ci ilin Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 15-ci Maddəsində qeyd edilir: "Hər bir insanın vətəndaşlıq hüququ vardır. Heç kəs əsassız olaraq vətəndaşlığından və ya vətəndaşlığını dəyişmək hüququndan məhrum edilə bilməz"[20]. Bu hüquq şəxs və Dövlət arasında həqiqi və effektiv əlaqəyə əsaslanır. İlk dəfə bu əlaqənin vətəndaşlığın əsası kimi qəbul edilməsi halı Beynəlxalq Məhkəmə tərəfindən 1955-ci ildə baxılmış Nottebom işi (Not tebohm Case) olmuşdu. Bu işlə bağlı qərarında Məhkəmə bildirmişdir: "Dövlətlərin təcrübəsinə, arbitraj və məhkəmə orqanlarının qərarı və mütəxəssislərin rəyinə uyğun olaraq, vətəndaşlıq, mahiyyətcə əsasında sosial mənsubiyyət, qarşılıqlı hüquq və vəzifələrlə birgə mövcudiyyət, maraq və hisslər olan bağlayıcı hüquqi bənddir" [12, s.10].

Vətəndaşlığın əldə edilməsinin üsullarını belə fərqləndirmək olar: doğum üzrə vətəndaşlığın əldə edilməsi; naturalizasiya nəticəsində vətəndaşlığın əldə edilməsi; ərazi dəyişiklikləri zamanı transfert və ya optasiya yolu ilə vətəndaşlığın əldə edilməsi; vətəndaşlığa bərpa etmə yolu ilə vətəndaşlığın əldə edilməsi və s.

Vətəndaşlıq haqqında Avropa Konvensiyasının 6-cı maddəsinin 3-cü bəndində göstərilir ki, hər bir iştirakçı dövlət öz daxili qanunvericiliyində onun ərazisində qanuni və daimi yaşayan şəxslərin naturalizasiyasının mümkünlüyünü təmin edir. Vətəndaşlığa qəbul üçün şərtlər müəyyən edilərkən, müraciət üçün tələb olunan yaşayış müddəti on ildən artıq nəzərdə tutmamalıdır.

"Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikası Qanununda əcnəbi üçün istər oturaqlıq, istərsə də dilin öyrənilməsi tələbi beynəlxalq hüquq qaydasına uyğun təsbit edilmişdir. Qanunun 14-cü maddəsində qeyd edilir ki, Respublikasının ərazisində son beş il ərzində fasiləsiz olaraq qanuni əsaslarla daimi yaşayan, qanuni gəlir mənbəyi olan, Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına riayət olunması barədə öhdəlik götürən, habelə Azərbaycan Respublikasının dövlət dilini bilməsi haqqında sənəd təqdim edən əcnəbi və vətəndaşlığı olmayan şəxs mənşəyindən, irqi və milli mənsubiyyətindən, cinsindən, təhsilindən, dinə münasibətindən, siyasi və başqa əqidələrindən asılı olmayaraq bu qanuna müvafiq surətdə öz vəsatəti ilə Azərbaycan Respublikasının vətəndaşlığına qəbul edilə bilər. Ərazi dəyişikliyi nəticəsində transfert və ya optasiya vasitəsilə bir dövlətin vətəndaşlığının itirilməsi, digərinin isə əldə edilməsinin üç əsas növü fərqləndirilir: müəyyən bir dövlətin ərazisində yeni bir dövlətin yaradılması və ya əvvəlki dövlətin süqutu ilə onun ərazisində bir neçə yeni dövlətlərin yaranması; iki və daha çox dövlətin birləşməsinə gətirib çıxaran ərazinin birləşdirilməsi; müqaviləyə uyğun olaraq bir dövlətin ərazisinin digərinə keçməsi. İki və daha çox dövlətin birləşməsi nəticəsində vətəndaşlığın əldə edilməsi avtomatik olaraq baş verir. Avtomatik transfert zamanı əhalinin müəyyən hissəsi üçün vətəndaşlığın əldə edilməsində seçim (optasiya) nəzərdə tutulur.

Vətəndaşlığın əldə edilməsi üsullardan biri də vətəndaşlığa bərpa və ya reinteqrasiyadır. Vətəndaşlıq haqqında Avropa Konvensiyasının 9-cu maddəsində qeyd olunur ki, hər bir iştirakçı dövlət öz daxili qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda və şərtlərlə, onun ərazisində qanuni və daimi əsaslarla yaşayan keçmiş vətəndaşlarının öz vətəndaşlığını bərpa etməsinə şərait yaradır. Bununla bağlı "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" qanunun 15-ci maddəsində qeyd edilir ki, əvvəllər Azərbaycan Respublikasının vətəndaşı olmuş və ya Azərbaycan Respublikası vətəndaşlığına xitam verilmiş şəxsin vəsatəti ilə o, bu qanunun 14-cü maddəsinin səkkizinci hissəsində sadalanmış məhdudiyyətlər nəzərə alınmaqla Azərbaycan Respublikasının vətəndaşlığına bərpa edilə bilər.

Azərbaycan Respublikasının vətəndaşlığı haqqında Qanununun 17-ci maddəsində göstərilir ki, Azərbaycan Respublikasının vətəndaşlığından çıxma müəyyənləşdirilmiş qaydada şəxsin vəsatəti üzrə həyata keçirilir. Eyni zamanda, həmin maddənin 2-ci hissəsində müəyyən edilmişdir ki, Azərbaycan Respublikasının vətəndaşlığından çıxmaq barəsində vəsatət qaldıran şəxsin dövlət qarşısında icra edilməmiş öhdəlikləri və ya Azərbaycan Respublikasında hüquqi və fiziki şəxslərin mənafeləri ilə bağlı olan əmlak öhdəlikləri varsa, vətəndaşlıqdan çıxmaq haqqında vəsatəti rədd edilə bilər. Həmin maddənin 3-cü hissəsində isə göstərilir ki, Azərbaycan Respublikasının vətəndaşlığından çıxmaq barəsində vəsatət qaldıran şəxs cinayət işi üzrə təqsirləndirilən şəxs qismində cəlb edilmişsə, yaxud onun barəsində qanuni qüvvəyə minmiş və icra edilməli olan məhkəmə hökmü varsa və ya şəxsin Azərbaycan Respublikası vətəndaşlığından çıxması Azərbaycan Respublikasının dövlət təhlükəsizliyi mənafelərinə ziddirsə, həmin hallar aradan qalxana qədər vətəndaşlıqdan çıxmağa yol verilmir. Azərbaycan Respublikası vətəndaşlığından çıxma haqqında qərar Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 20-ci bəndinə müvafiq surətdə qəbul olunur.

Göründüyü kimi, vətəndaşlıqdan çıxmaq hüququ da müəyyən şərtlər gözlənilməklə təmin edilir.

Vətəndaşın öz iradəsi ilə vətəndaşlıqdan çıxması ilə yanaşı, qanunvericilik həmçinin dövlət tərəfindən müəyyən edilmiş hallarda vətəndaşlığın itirilməsi mexanizmini də nəzərdə tutur.

Azərbaycan Respublikası Konstitusiyasının 53-cü maddəsinin 1-ci hissəsi qanunla müəyyən edilmiş itirilmə halları ifadəsini təsbit etmişdir. Belə ki, burada qeyd edilir ki, Azərbaycan Respublikasının vətəndaşı Azərbaycan Respublikası vətəndaşlığından (onun qanunla müəyyən edilmiş itirilmə halları istisna olmaqla) məhrum edilə bilməz. Həmin hallar isə "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Qanunun 18-ci maddəsində müəyyən edilmişdir. Belə ki, Qanuna əsasən, Vətəndaşsızlığın ixtisar edilməsi haqqında Konvensiyanın müddəaları nəzərə alınmaqla, aşağıdakılar Azərbaycan Respublikası vətəndaşlığının itirilməsi üçün əsas hesab edilir: Azərbaycan Respublikası vətəndaşının digər dövlətin vətəndaşlığını könüllü əldə etməsi; Azərbaycan Respublikası vətəndaşının xarici dövlətin dövlət və ya bələdiyyə orqanlarında, yaxud silahlı qüvvələrində və ya digər silahlı birləşmələrində könüllü xidmət etməsi; Azərbaycan Respublikası vətəndaşının dövlətin təhlükəsizliyinə ciddi zərər vuran davranışı; Azərbaycan Respublikası vətəndaşının terror fəaliyyətində iştirakı və ya Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsinə yönələn hərəkətləri həyata keçirməsi; Azərbaycan Respublikası vətəndaşının dini ekstremist fəaliyyətdə iştirakı, o cümlədən dini düşmənçilik zəminində dini məzhəblərin yayılması və ya dini ayinlərin icrası adı altında xarici dövlətdə silahlı münaqişədə iştirak etməsi və ya həmin münaqişəyə digər şəxsi cəlb etməsi, yaxud bu məqsədlə sabit qrup yaratması, habelə Azərbaycan Respublikası vətəndaşının dini təhsil adı altında xarici

dövlətdə hərbi təlim keçməsi; Azərbaycan Respublikasının vətəndaşlığını əldə etmiş şəxsin vətəndaşlığa qəbul olunmaq üçün zəruri olan məlumatı qəsdən saxtalaşdırması və ya saxta sənəd təqdim etməsi [8].

Vətəndaşlığın itirilməsi əsaslarından biri olan digər dövlətin vətəndaşlığının əldə edilməsi məsələsi birbaşa olaraq ikili vətəndaşlıq problemi və bu sahədəki beynəlxalq standartlarla sıx bağlıdır.

İkili vətəndaşlıq şəxsin eyni zamanda iki və daha artıq dövlətin vətəndaşı olmasını ifadə edir. “Azərbaycan Respublikasının vətəndaşlığı haqqında” Qanunun 10-cu maddəsində qeyd edilir ki, Azərbaycan Respublikasının vətəndaşı olan şəxsin ikili vətəndaşlığı olduqda həmin şəxsin xarici dövlətin vətəndaşlığına mənsubiyyəti, Azərbaycan Respublikasının beynəlxalq müqavilələrində nəzərdə tutulmuş və ya Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə müvafiq surətdə həll edilmiş hallar istisna olmaqla tanınmır. Xarici dövlətin vətəndaşlığını qəbul etmiş Azərbaycan Respublikasının vətəndaşı bir ay müddətində bu barədə müvafiq icra hakimiyyəti orqanına yazılı məlumat verməlidir. Belə məlumatı verməyən şəxslər Azərbaycan Respublikasının Cinayət Məcəlləsi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar. Vətəndaşlığın bəzi məsələləri dövlətlərarası xarakter daşıyır (məsələn, ikili vətəndaşlıq problemi) [21].

1997-ci il noyabrın 6-da Strazburqda imzalanmış Vətəndaşlıq haqqında Avropa Konvensiyası vətəndaşlıq sahəsində dövlətlərin daxili qanunvericiliyinin uyğunlaşmalı olduğu ümumi prinsipləri müəyyən edir. Konvensiyanın əsas məqsədlərinə vətəndaşsızlıq hallarından qaçmaq, ayrı-seçkiliyin qarşısını almaq və çoxvətəndaşlıq hallarında hərbi öhdəlikləri tənzimləmək daxildir. Konvensiyanın 14-cü maddəsi dövlətlərin hansı hallarda çoxvətəndaşlığa icazə verməli olduğunu (məsələn, uşaq doğularkən və ya nikah vasitəsilə avtomatik qazanıldıqda) müəyyən edir. Həmçinin 17-ci maddədə qeyd edilir ki, digər dövlətin vətəndaşlığına malik olan iştirakçı dövlətin vətəndaşları, həmin dövlətin ərazisində yaşadıqları təqdirdə digər vətəndaşlarla eyni hüquq və vəzifələrə malikdirlər [19].

Çoxvətəndaşlıq hallarının tənzimlənməsi ilə yanaşı, beynəlxalq hüququn ən mühüm hədəflərindən biri də heç bir dövlətin himayəsində olmayan apatridlərin sayının azaldılması və onların hüquqlarının qorunmasıdır.

Birləşmiş Millətlər Təşkilatı apatridlərin taleyinə dəfələrlə dərin maraq göstərmişdir. BMT Nizamnaməsinin və Baş Məclisin 10 dekabr 1948-ci ildə qəbul etdiyi “İnsan hüquqları haqqında ümumi Bəyannamə”nin bütün insanların, heç bir ayrı-seçkilik qoyulmadan əsas hüquq və azadlıqlardan istifadə etməsi prinsipini bərqərar etdiklərini nəzərə alaraq Baş Məclis tərəfindən 28 sentyabr 1954-cü il tarixində “Apatridlərin statusu haqqında” konvensiya qəbul edilmişdir. Bu Konvensiyanın 1-ci maddəsində vətəndaşlığı olmayan şəxslərin anlayışı verilir: Vətəndaşlığı olmayan şəxslər dedikdə, istənilən dövlətin qanununa əsasən vətəndaş hesab olunmayan şəxslər başa düşülür. Bu mühüm aktın müddəalarına apatridlərə onların irqinə, dininə və ya ölkə mənşəyi əlamətlərinə görə heç bir ayrı-seçkilik qoyulmadan tətbiq edilməlidir. Razılığa gələn dövlətlər, bu Konvensiyaya əsasən apatridlərə daha əlverişli hüquqi şərait yaratmaqdan əlavə, onları əcnəbilərin istifadə etdikləri şəraitlə təmin etməlidirlər[18].

Qeyd edək ki, Apatridlərin statusu haqqında Konvensiyaya qoşulmaq barədə 31 may 1996-cı il tarixli Azərbaycan Respublikasının Qanunu ilə Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatının Apatridlərin statusu haqqında 28 sentyabr 1954-cü il tarixli Konvensiyasına qoşulub [9].

Eyni zamanda, Azərbaycan Respublikası 31 may 1996-cı ildə Birləşmiş Millətlər Təşkilatının Vətəndaşsızlığın ixtisar edilməsi haqqında 30 avqust 1961-ci il tarixli Konvensiyasına qoşulub [15]. Bu Konvensiya dövlətlərin öz vətəndaşlıq qanunlarını tətbiq edərkən vətəndaşsızlığın qarşısını almaq öhdəliyini və bu sahədəki beynəlxalq normaları müəyyənedir [17].

Vətəndaşlıq və Vətəndaşsızlıq: Parlamentarilər üçün Təlimatda qeyd olunur ki, BMT QAK Parlamentlərarası İttifaqla (PAİ) da, parlament üzvlərinin vətəndaşsızlığa dair beynəlxalq hüquq normaları sahəsində məlumatlılığını artırmaq və onları vətəndaşsızlığın qarşısını almağa kömək edən çoxsaylı tövsiyələr və faydalı təcrübə ilə tanış etmək məqsədi ilə yaxından əməkdaşlıq edir. BMT QAK parlament üzvlərin vətəndaşsızlığı aradan qaldırmağa kömək edən, eyni zamanda vətəndaşlığından məhrum edilmiş şəxslərin vətəndaşlıq hüququnu təmin edəcək vətəndaşlıq sahəsində qanunvericiliyi qəbul etmələrinə, həmçinin, vətəndaşsızlıq problemini yaratmadan ikili və ya çoxvətəndaşlılıq problemini həll edən müqavilələrin bağlanması üçün imkanlar yaradır [12, s. 60].

Vətəndaşlığı olmayan şəxslər kimi, başqa bir dövlətin vətəndaşı olan əcnəbilər də yaşadıqları ölkənin hüquq sisteminə daxil olur və onların statusu həm milli qanunvericilik, həm də beynəlxalq diplomatik normalarla tənzim edilir.

Azərbaycan Respublikasının milli qanunvericiliyində əcnəbilərin hüquqi statusu ilə bağlı məsələlər Azərbaycan Respublikasinin Miqrasiya Məcəlləsi ilə tənzimlənir. Bu Məcəllə 2 iyul 2013-cü ildə qəbul olunmuş və 1 avqust 2013-cü il tarixində qüvvəyə minmişdir. Məcəllənin qüvvəyə minməsi ilə “Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında” Azərbaycan Respublikasının 1996-cı il 13 mart tarixli 41-IQ nömrəli Qanunu; “İmmiqrasiya haqqında” Azərbaycan Respublikasının 1998-ci il 22 dekabr tarixli 592-IQ nömrəli Qanunu; “Əmək miqrasiyası haqqında” Azərbaycan Respublikasının 1999-cu il 28 oktyabr tarixli 724-IQ nömrəli Qanunu; “Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisindən tranzit keçidi qaydaları haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikasının 2002-ci il 27 dekabr tarixli 414-IIQ nömrəli Qanunular ləğv edilmişdir [6].

Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin 3-cü maddəsi ilə əcnəbiyə “Azərbaycan Respublikasının vətəndaşı olmayan və başqa dövlətin vətəndaşlığına mənsub olan şəxs” kimi anlayış verilir. Dövlətin mövcudluğunun istənilən mərhələsində əcnəbilərin hüquqi statusunun müzakirəsi həmişə aktual olmuşdur. Bütün bunlar müxtəlif dövlətlərdə əcnəbilərin hüquqi vəziyyətini nizama salan yeni qanunvericilik aktlarının hazırlaması və qəbul edilməsi zərurətini müəyyən etmişdir [5].

Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyətinin əsas istiqamətlərindən biri diplomatik müdafiə problemidir. Əcnəbilərin hüquqi vəziyyətini tənzim edən mühüm prinsip kimi əcnəbilərin vətəndşlığı olduğu dövlət tərəfindən diplomatik müdafiə edilməsi prinsipinin çıxış etməsi bu nöqteyi-nəzərdən xüsusi qeyd edilməlidir. Diplomatik müdafiə beynəlxalq hüququn elementar prinsipidir. Bu öz ifadəsini İnsan hüquqları haqqında Ümumi bəyənnamənin 7-ci maddəsində tapmışdır. Belə ki, orada göstərilir ki, bütün insanlar qanun qarşısında bərabərdir və heç bir fərq qoyulmadan qanun qarşısında eyni dərəcədə müdafiə olunmaq hüququna malikdir. 18 aprel 1961-ci il tarixli Diplomatik münasibətlər haqqında Vyana Konvensiyasının 3-cü maddəsində diplomatik nümayəndəliyin mühüm funksiyalarından biri kimi beynəlxalq hüquqla yol verilən hədlərdə təmsil etdiyi dövləti və onun vətəndaşlarının olduğu dövlətdə müdafiə etmək göstərilir. Diplomatik müdafiə hər bir dövlətin dövlət suverenliyindən irəli gələn bir hüquqdur [2, s.475-477].

Bununla əlaqədar məsələlər Azərbaycan Respublikası Konstitusiyasında da əks olunmuşdur. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının 53-cü maddəsinin III hissəsində qeyd edilir ki, Azərbaycan Respublikası onun ərazisindən kənarda müvəqqəti və ya daimi yaşayan Azərbaycan Respublikası vətəndaşlarının hüquqi müdafiəsinə təminat verir və onlara hamilik edir.

Azərbaycan Respublikasının Konstitusiyasının 69-cu maddəsi əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqlarını təsbit edir: onlar qanunla və ya beynəlxalq müqavilə ilə başqa hal nəzərdə tutulmayıbsa, Azərbaycan vətəndaşları ilə bərabər bütün hüquqlardan istifadə edə bilər və bütün vəzifələri yerinə yetirməlidirlər. Konstitusiyanın 70-ci maddəsində isə əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə siyasi sığınacaq verilməsi müddəası təsbit edilmişdir [1].

Onu da qeyd edək ki, əcnəbi və vətəndaşlığı olmayan şəxslər arasında xüsusi qorunma tələb edən və həm milli, həm də beynəlxalq səviyyədə fərqli hüquqi statusla təmin olunan qaçqın və məcburi köçkünlərin hüquqi statusunun tənzimlənməsi bu sahədəki qanunvericilik sisteminin mühüm tərkib hissəsini təşkil edir.

"Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" 21 may 1999-cu il tarixli Azərbaycan Respublikasinin Qanuna əsasən Qaçqın – Azərbaycan Respublikasının vətəndaşı olmayıb, irqi əlamətinə, milliyyətinə, dini etiqadına, müəyyən sosial qrupa mənsubluğuna və ya siyasi əqidəsinə görə təqiblərin qurbanı olmaq barəsində tam əsaslı ehtiyat üzündən vətəndaşı olduğu ölkədən kənarda qalan və eyni ehtiyat üzündən həmin ölkənin himayəsindən istifadə edə bilməyən və ya istifadə etmək istəməyən, yaxud müəyyən vətəndaşlığı olmayıb oxşar hallar nəticəsində əvvəl adətən yaşadığı ölkədən kənarda qalan, ehtiyat üzündən oraya qayıda bilməyən və ya qayıtmaq istəməyən şəxsdir. Məcburi köçkün isə (ölkə daxilində köçürülmüş şəxs) – Azərbaycan Respublikası ərazisində hərbi təcavüz, təbii və texnogen fəlakət nəticəsində daimi yaşayış yerini tərk etməyə məcbur olub başqa yerə köçmüş şəxsdir [11].

Qaçqınların statusu haqqında 28 iyul 1951-ci il tarixli Konvensiyasının 26-cı maddəsinə əsasən, bu konvensiyaya qoşulan dövlət öz ərazisində qanuni yaşayan qaçqınlara eyni vəziyyətdə adətən tətbiq olunan bütün qaydaları gözləmək şərtilə ərazisi hüdudlarında yaşayış yeri seçmək hüququ və sərbəst hərəkət etmək hüququ verəcəkdir. 32-ci maddəyə əsasən Dövlətlər öz ərazilərində qanuni yaşayan qaçqınları yalnız dövlət təhlükəsizliyinin və ictimai asayişin qorunması səbəblərinə görə ölkədən çıxaracaqlar. 33-cü maddəyə əsasən Razılığa gələn Dövlətlər irqi, dini, vətəndaşlıq, müəyyən sosial qrupa mənsubiyyət, siyasi əqidə səbəblərinə görə həyat və ya azadlığını təhlükə gözləyən ölkənin sərhədlərinə heç vəchlə göndərməyəcək və ya qaytarmayacaqlar. Lakin bu qərar üzürlü səbəblərə görə qaldıqları ölkənin təhlükəsizliyi üçün qorxulu sayılan və ya xüsusilə ağır cinayət törətdiyinə görə məhkəmənin qüvvəyə minmiş hökmü ilə məhkum olunmuş və ölkə üçün ictimai təhlükə törədən qaçqınlara şamil edə bilməz[10].

Göründüyü kimi, Azərbaycan Respublikası vətəndaşlıq məsələlərində beynəlxalq normalara üstünlük verir. Dövlətlərarası inteqrasiya və rəqəmsal məlumat mübadiləsi (məsələn, miqrasiya məlumatlarının mübadiləsi) vətəndaşlıq hüququnun transmilli səviyyədə qorunmasını təmin edir. Bu prosesdə məlumat mübadiləsinin operativliyi üçün Vahid Miqrasiya Məlumat Sistemi mühüm rol oynayır. Sistem Azərbaycan Respublikasında yaşayan və müvəqqəti olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən öz səlahiyyətləri daxilində qaçqın statusu verilmiş şəxslər (qaçqınlar), habelə xarici ölkələrdə yaşayan Azərbaycan Respublikası vətəndaşları haqqında məlumatların toplandığı informasiya resursudur [4].

Azərbaycan Respublikasında vətəndaşlıq münasibətlərinin hüquqi tənzimlənməsi həm milli maraqların qorunmasına, həm də beynəlxalq humanitar prinsiplərə söykənir. Araşdırma göstərir ki, vətəndaşlığın əldə edilməsi, bərpası və xitamı ilə bağlı prosedurlar qanunvericiliklə dəqiq reqlamentləşdirilmişdir. Xüsusilə, rəqəmsallaşma dövründə vətəndaşlıq mənsubiyyətinin müəyyənləşdirilməsi və şəxsiyyəti təsdiq edən sənədlərin (elektron şəxsiyyət vəsiqəsi, biometrik pasport) tətbiqi dövlət xidmətlərinin keyfiyyətini köklü şəkildə dəyişmişdir. Elektron hökumətin inkişafı çərçivəsində vətəndaşlıq məsələləri üzrə müraciətlərin (vətəndaşlığa qəbul, çıxma və s.) rəqəmsal platformalar vasitəsilə icra edilməsi bürokratik maneələri əhəmiyyətli dərəcədə azaldır. Lakin rəqəmsal mühitdə təhlükəsizlik və fərdi məlumatların gizliliyi məsələləri prioritet olaraq qalmalıdır. Xüsusilə, biometrik identifikasiya sistemlərinin tətbiqi zamanı diskriminasiya risklərinin minimuma endirilməsi və məxfiliyin yüksək standartlarla qorunması vacibdir.

Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycanın vətəndaşlıq qanunvericiliyi dinamik inkişaf edir və beynəlxalq standartlara uyğunlaşdırılır. Vətəndaşsızlıq hallarının azaldılması, qaçqınların hüquqi statusunun təmin edilməsi və rəqəmsal xidmətlərin bu proseslərə inteqrasiyası ölkənin müasir hüquqi dövlət quruculuğu yolunda mühüm nailiyyətləridir. Gələcəkdə “rəqəmsal vətəndaşlıq” konsepsiyasının daha geniş tətbiqi dövlət-vətəndaş münasibətlərində yeni bir mərhələ açacaqdır.

Qeyd edildiyi kimi, Azərbaycan Respublikasında vətəndaşlıq münasibətlərinin hüquqi tənzimlənməsi elektron hökumət strategiyası ilə birbaşa bağlıdır. Rəqəmsallaşma təkcə sənəd dövriyyəsini sürətləndirmir, həm də vətəndaşların hüquqlarının daha etibarlı qorunmasını təmin edir. Azərbaycanın bu sahədəki qanunvericiliyi həm milli maraqları (məsələn, terrorla mübarizə üçün vətəndaşlığın itirilməsi), həm də beynəlxalq humanitar standartları (vətəndaşsızlığın azaldılması) balanslaşdırılmış şəkildə ehtiva edir. Gələcək inkişaf üçün vətəndaşlıq xidmətlərinin tamamilə "bulud" texnologiyalarına keçidi və transsərhəd rəqəmsal xidmətlərin genişləndirilməsi tövsiyə olunur.

Əsas bir məqamı da qeyd edək ki, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi vətəndaşlıq münasibətlərinin rəqəmsal mühitdə hüquqi tənzimlənməsini və vətəndaşlıq vəziyyəti aktlarının elektron müstəvidə vahid dövlət qeydiyyatını təmin edən əsas mərkəzi icra hakimiyyəti orqanıdır. Ədliyyə Nazirliyi vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatının aparılmasını təşkil edir. Bu fəaliyyət Nazirliyin Notariat, qeydiyyat və reyestr baş idarəsi tərəfindən həyata keçirilir.

Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri öz səlahiyyətləri daxilində doğumun, nikahın bağlanmasının, nikahın pozulmasının, övladlığa götürmənin, atalığın müəyyən edilməsinin, adın, ata adının və soyadının dəyişdirilməsinin, ölümün qeydiyyatını aparır, vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatını dəyişir, tamamlayır, düzəldir və ləğv edir, itmiş qeydləri bərpa edir, akt kitablarını saxlayır və təkrar şəhadətnamələr verirlər [13].

Bu istiqamətdəki fəaliyyətin əsas hüquqi bazalarından birini Azərbaycan Respublikası Prezidentinin 23 sentyabr 2020-ci il tarixli, 1160 nömrəli "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı sahəsində elektron xidmətlərin tətbiqinin genişləndirilməsi haqqında" Fərmanı təşkil edir. Sözü gedən Fərman bu sahədə rəqəmsallaşmanı sürətləndirmiş və dövlət xidmətlərinin vətəndaşlar üçün daha əlçatan olmasını təmin etmişdir [14].

Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanı ilə geniş vüsət alan elektronlaşma siyasəti nəticəsində vətəndaşlar üçün rəsmi dövlət platformaları vasitəsilə yeni nəsil xidmətlər əlçatan olmuşdur. Azərbaycan Respublikasının rəsmi dövlət platforması və rəqəmsal xidmətlərin əsas mərkəzi “Elektron hökumət” (e-gov.az) portalıdır. “E-gov.az” (elektron hökumət portalı)

dövlət qurumları tərəfindən təqdim edilən müxtəlif elektron xidmətlərin cəmləşdiyi əsas nöqtədir. “My.gov.az” platforması vətəndaşlara öz şəxsi, hüquqi və maliyyə məlumatlarını vahid məkandan izləmək və dövlət xidmətlərindən “bir pəncərə” prinsipi ilə yararlanmaq imkanı verir. Bu portal, vətəndaşların dövlət qurumları ilə olan münasibətlərini rəqəmsal müstəviyə keçirərək “şəxsi kabinet” əsaslı xidmət modelini təqdim edir[7].

Eyni zamanda dövlət müəyyən sahələr üzrə ixtisaslaşmış geniş portal şəbəkəsinə malikdir: e-mehkeme.gov.az; e.customs.gov.az; e-service.migration.gov.az; e-taxes.gov.az; e-sosial.az və s.

Göründüyü kimi, müasir dövrdə elektron hökumət sistemləri vətəndaşlıq münasibətlərinin tənzimlənməsində mühüm rol oynayır və Azərbaycanda bu sahədə vətəndaşlıq üçün müraciətlərin elektron qəbulu, sənədlərin rəqəmsal yoxlanılması, eləcə də statusun onlayn izlənməsi kimi mühüm inkişaf müşahidə olunur. Rəqəmsallaşma şəffaflığın artırılması, korrupsiya risklərinin azaldılması, vaxt və resurslara qənaət və xidmətlərin əlçatanlığının genişlənməsi baxımından əhəmiyyətli üstünlüklər yaradır. Gələcək perspektivdə isə vətəndaşlıq münasibətlərinin tənzimlənməsi rəqəmsal identifikasiya sistemlərinin genişləndirilməsi, blokçeyn texnologiyalarının tətbiqi, beynəlxalq məlumat mübadiləsinin gücləndirilməsi və süni intellekt əsaslı qərar sistemlərinin tətbiqi istiqamətlərində daha da inkişaf edəcəkdir.

## Biblioqrafiya


1. Azərbaycan Respublikasının Konstitusiyası. – Bakı: Hüquq Yayın Evi, 2019. – 116 s.
2. Əliyev Ə. İnsan Hüquqları. – Bakı: Hüquq Ədəbiyyatı Nəşriyyatı, 2013. – 506 s.
3. Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı. 27 fevral 2026-cı il Azərbaycan Respublikası Prezidentinin Fərmanı. [Elektron resurs]. URL: https://static.president.az/upload/Files/2026/03/01/ 3a11b05766a6b2c08f7a 5000a393ca03_2828342.pdf
4. Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı 4 iyun 2010-cu il. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/19674
5. Azərbaycan Respublikasinin Miqrasiya Məcəlləsi. 2013-cü il 2 iyul. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/46959
6. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında Azərbaycan Respublikasının Qanunu 2 iyul 2013-cü il. [Elektron resurs]. URL: https://president.az/az/articles/view/8662
7. Azərbaycan Respublikasının rəsmi dövlət platforması. [Elektron resurs]. URL: https://my.gov.az/entities/17ceab4a-0cff-41b7-a853-7f2c5c55aef9
8. Azərbaycan Respublikasının vətəndaşlığı haqqında Azərbaycan Respublikasının Qanunu. 30 sentyabr 1998-ci il. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/3187
9. Apatridlərin statusu haqqında Konvensiyaya qoşulmaq barədə Azərbaycan Respublikasinin Qanunu. 31 may 1996-cı il. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/4094
10. Qaçqınların statusu haqqında Konvensiya. Preambula. 1951-ci il 28 iyul Konvensiyası. [Elektron resurs]. URL: https://migration.gov.az/content/pdf/5acb13dbbab6c_Qa%C3%A7q%C4%B1nlar%C4%B1n%20statusu%20haqq%C4%B1nda%20konvensiya.pdf

11. Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında Azərbaycan Respublikasinin Qanunu 21 may 1999-cu il. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/4757

12. Vətəndaşlıq və Vətəndaşsızlıq: Parlamentarilər üçün Təlimat. [Elektron resurs]. URL: http://archive.ipu.org/PDF/publications/nationality_az.pdf

13. Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı. [Elektron resurs]. URL: https://justice.gov.az/az/activities/16

14. Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı sahəsində elektron xidmətlərin tətbiqinin genişləndirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 23 sentyabr 2020-ci il. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/46014

15. Vətəndaşsızlığın ixtisar edilməsi haqqında Konvensiyaya qoşulmaq barədə Azərbaycan Respublikasının Qanunu. [Elektron resurs]. URL: https://e-qanun.az/ framework/4092

16. Vətəndaşların müraciətləri haqqında Azərbaycan Respublikasının Qanunu. 30 sentyabr 2015-ci il. [Elektron resurs]. URL: https://e-qanun.az/framework/31281

17. Convention on the reduction of statelessness. [Elektron resurs]. URL: https://www.unhcr.org/sites/default/files/2025-02/1961-convention-reduction-statelessness.pdf

18. Convention relating to the Status of Stateless Persons. 28 September 1954. [Elektron resurs]. URL: https://www.ohchr.org/en/instruments mechanisms/instruments/convention-relating-status-stateless-persons

19. European Convention on Nationality. Strasbourg, 6.XI.1997. [Elektron resurs]. URL:https://rm.coe.int/168007f2c8

20. Universal Declaration of Human Rights. 10 dekabr 1948-ci il. [Elektron resurs]. URL:https://www.un.org/en/about-us/universal-declaration-of-human-rights

21. Бабурина В.Л. Гражданство Российской Федерации: конституционно-правовая теория и практика: дис. ... канд. юрид. наук [Электронный ресурс]. URL: /https://www.dissercat.com/content/grazhdanstvo-rossiiskoi-federatsii-konstitutsionno-pravovaya-teoriya-i-praktika

***Məqalə daxil olmuşdur:*** *23 aprel 2026-cı il*
***Çapa qəbul edilmişdir:*** *06 may 2026-cı il*

**Huseynova S.U.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2026.83.78-91**
**UDC: 34:342**

## Legal regulation of citizenship relations in the Republic of Azerbaijan: in the context of e-government and digital services

**Abstract:** In the modern era, the legal regulation of citizenship relations in the Republic of Azerbaijan has entered a dynamic stage of development through both the improvement of national

♦ **Huseynova Sevinj Usub -** Leading researcher of the "Digital Oriental Studies and Artificial Intelligence" Department of the Institute of Oriental Studies named after Z.M. Bunyadov of ANAS, PhD in Law, Associate Professor. E-mail: sevincshuseyn70@gmail.com

legislation and the application of digital governance models. The theoretical and practical basis of this process, along with the constitutional essence of citizenship rights, is formed by international documents to which the Republic of Azerbaijan is a party – specifically, the European Convention on Nationality (1997), as well as the Conventions relating to the Status of Stateless Persons (1954) and the Reduction of Statelessness (1961), and other international instruments.

The digital transformation at the heart of modern public administration and the development of the “E-government” model, resulting from the implementation of strategic Decrees and State Programs signed in the relevant field, have led to fundamental changes in the resolution of citizenship issues. Through the “Government Cloud” (G-cloud) infrastructure, “Mygov” platform, and “SIMA” biometric digital signature technologies established by these legal acts, complex procedures such as the acquisition, restoration, and termination of citizenship have been electronized. These innovations serve to reduce bureaucratic hurdles, increase the accessibility of services, and ensure transparency. In particular, the application of biometric identification and artificial intelligence-based systems allows for both more effective protection of individual rights and the provision of data security at a strategic level.

It is noted that Azerbaijan's national experience in this field is based on the synthesis of international convention requirements with innovative technologies, and our country's position in the UN E-Government Development Index is a result of this successful digital strategy. The digitalization of civil status acts and the integration of centralized information systems reshape the relations between the state and the citizen based on the principles of modern rule of law. Overall, Azerbaijan's national experience in this field is based on the synthesis of international convention requirements with innovative technologies and creates a solid legal-technological foundation for future development.

**Keywords:** citizenship, e-government, digital transformation, legal regulation, right to citizenship, international law, national legislation, constitutional guarantee, statelessness, migration service.

## References

1. Constitution of the Republic of Azerbaijan. – Baku: Law Publ.House, 2019. – 116 p. (in Azerbaijani).

2. Aliyev A. Human Rights. – Baku: Law Literature Publ. House, 2013. – 506 p. (in Azerbaijani).

3. Action Plan for Accelerating Digital Development in the Republic of Azerbaijan for 2026-2028. Decree of the President of the Republic of Azerbaijan dated February 27, 2026. Available at: https://static.president.az/upload/Files/2026/03/01/3a11b05766a6b2c08f7a 5000a393ca03_2828342.pdf (in Azerbaijani).

4. Decree of the President of the Republic of Azerbaijan on Approval of the Regulations on the Unified Migration Information System of the State Migration Service of the Republic of Azerbaijan dated June 4, 2010. Available at: https://e-qanun.az/framework/19674 (in Azerbaijani).

5. Migration Code of the Republic of Azerbaijan. July 2, 2013. Available at: https://e-qanun.az/framework/46959 (in Azerbaijani).

6. Law of the Republic of Azerbaijan on approval, entry into force of the Migration Code of the Republic of Azerbaijan and related legal regulation July 2, 2013. Available at: https://president.az/az/articles/view/8662 (in Azerbaijani).

7. Official state platform of the Republic of Azerbaijan. Available at: https://my.gov.az/entities/17ceab4a-0cff-41b7-a853-7f2c5c55aef9 (in Azerbaijani).

8. Law of the Republic of Azerbaijan on Citizenship of the Republic of Azerbaijan. September 30, 1998. Available at: https://e-qanun.az/framework/3187 (in Azerbaijani).

9. Law of the Republic of Azerbaijan on Accession to the Convention relating to the Status of Stateless Persons. May 31, 1996. Available at: https://e-qanun.az/framework/4094 (in Azerbaijani).

10. Convention relating to the Status of Refugees. Preamble. Convention of July 28, 1951. Available at: https://migration.gov.az/content/pdf/5acb13dbbab6c_Qa%C3%A7q%C4%B1nlar%C4%B1n%20statusu%20haqq%C4%B1nda%20konvensiya.pdf (in Azerbaijani).

11. Law of the Republic of Azerbaijan on the Status of Refugees and Internally Displaced Persons (Internally Displaced Persons) of May 21, 1999. Available at: https://e-qanun.az/framework/4757 (in Azerbaijani).

12. Citizenship and Statelessness: A Guide for Parliamentarians. Available at: http://archive.ipu.org/PDF/publications/nationality_az.pdf (in Azerbaijani).

13. State registration of civil status acts. Available at: https://justice.gov.az/az/activities/16 (in Azerbaijani).

14. Decree of the President of the Republic of Azerbaijan on expanding the application of electronic services in the field of state registration of civil status acts. September 23, 2020. Available at: https://e-qanun.az/framework/46014 (in Azerbaijani).

15. Law of the Republic of Azerbaijan on accession to the Convention on the Reduction of Statelessness. Available at: https://e-qanun.az/ framework/4092 (in Azerbaijani).

16. Law of the Republic of Azerbaijan on Citizens' Appeals. September 30, 2015. Available at: https://e-qanun.az/framework/31281 (in Azerbaijani).

17. Convention on the reduction of statelessness. Available at: https://www.unhcr.org/sites/default/files/2025-02/1961-convention-reduction-statelessness.pdf

18. Convention relating to the Status of Stateless Persons. 28 September 1954. Available at: https://www.ohchr.org/en/instruments mechanisms/instruments/convention-relating-status-stateless-persons

19. European Convention on Nationality. Strasbourg, 6.XI.1997. Available at: https://rm.coe.int/168007f2c8

20. Universal Declaration of Human Rights. 10 dekabr 1948-ci il. Available at: https://www.un.org/en/about-us/universal-declaration-of-human-rights

21. Baburina V.L. Citizenship of the Russian Federation: constitutional-legal theory and practice: dis. ... PhD in Law. Available at: /https://www.dissercat.com/content/grazhdanstvo-rossiiskoi-federatsii-konstitutsionno-pravovaya-teoriya-i-praktika (in Russian).

***The article was submitted**: 2026 April 23*

***Accepted for publication**: 2026 May 06*

Гусейнова С.У.♦

DOI: 10.25108/2304-1730-1749.iolr.2026.83.78-91
УДК: 34:342

# Правовое регулирование отношений гражданства в Азербайджанской Республике: в контексте электронного правительства и цифровых услуг

**Аннотация:** Правовое регулирование отношений гражданства в Азербайджанской Республике на современном этапе вступило в динамичную фазу развития как за счет совершенствования национального законодательства, так и благодаря внедрению моделей цифрового управления. Теоретическую и практическую основу этого процесса, наряду с конституционной сущностью права на гражданство, составляют международные документы, к которым присоединилась Азербайджанская Республика, – в частности, Европейская конвенция о гражданстве (1997 г.), а также конвенции «О статусе апатридов» (1954 г.) и «О сокращении безгражданства» (1961 г.), а также другие международные акты.

Цифровая трансформация, стоящая в центре современного государственного управления, и развитие модели «Электронного правительства», ставшие результатом исполнения стратегических указов и государственных программ в соответствующей сфере, привели к коренным изменениям в решении вопросов гражданства. Посредством инфраструктуры «Правительственного облака» (G-cloud), платформы «Mygov» и технологий биометрической цифровой подписи «SİMA», определенных данными правовыми актами, были электронизированы такие сложные процедуры, как приобретение, восстановление и прекращение гражданства. Эти инновации служат сокращению бюрократических барьеров, повышению доступности услуг и обеспечению прозрачности. В частности, применение биометрической идентификации и систем на основе искусственного интеллекта позволяет более эффективно защищать права личности и обеспечивать безопасность данных на стратегическом уровне.

Отмечается, что национальный опыт Азербайджана в этой области основан на синтезе требований международных конвенций и инновационных технологий, а позиции нашей страны в Индексе развития электронного правительства ООН являются результатом этой успешной цифровой стратегии. Цифровизация актов гражданского состояния и интеграция централизованных информационных систем переформатируют отношения между государством и гражданином на основе принципов современного правового государственного строительства. В целом, национальный опыт Азербайджана в этой сфере основывается на синтезе требований международных конвенций с инновационными технологиями и создает прочную правовую и технологическую базу для будущего развития.

**Ключевые слова:** гражданство, электронное правительство, цифровая трансформация, правовое регулирование, право на гражданство, международное право, национальное законодательство, конституционные гарантии, апатридство, миграционная служба.

***Дата поступления:*** *23 апреля 2026 г.*

♦ **Гусейнова Севинж Усуб кызы** - ведущий научный сотрудник отдела «Цифровое востоковедение и искусственный интеллект» Института востоковедения им. З.М. Бунядова НАНА, доктор философии по праву, доцент. (Азербайджан). E-mail: sevinjshuseyn70@gmail.com

***Дата принятия в печать:*** *06 мая 2026 г.*